# Nəbi İBRAHİMLİ - 80



Hörmətli Nəbi müəllim!

Sizi - istedadlı yazıçı-publisisti 80 illiyiniz münasibətilə təbrik edirik.

Siz 1945-ci ildə Salyan şəhərində anadan olmusunuz. Salyan şəhər 2 saylı tam orta məktəbində təhsilinizi başa vurmusunuz. 1974-1978-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsil almısınız və Salyanda müəllimlik fəaliyyətinə başlamısınız. 1981-ci ildən Salyan Rayon Partiya komitəsində təlimatçı, Rayon Mədəniyyət şöbəsinin müdiri, Rayon Təhsil şöbəsində metodist-inspektor, daha sonra Salyan Rayon İcra Hakimiyyətində baş məsləhətçi vəzifəsində işləmisiniz. "Təfəkkür" Universitetinin Salyan filialında, daha sonra isə Azərbaycan Müəllimlər İnstutunun Salyan filialında müəllim kimi çalışmısınız. 1980-ci illərdən ədəbi yaradıcılıqla məşğul olmusunuz. Azərbaycan Dövlət Pedaqoji Universitetinin dissertantı kimi uşaq ədəbiyyatının nəzəri problemləri üzərində çalışmış, Xəlil Rza Ulutürkün uşaq şeirlərində ənənə və novatorluq mövzusunda tədqiqat işləri aparmısınız. Sizin "X.R.Ulutürkün uşaq şeirlərində ənənə və novatorluq" və "Tanınmış pedaqoq Yusif Zeynalovun həyat yolu" kitablarınız ciddi araşdırmalarınızın məhsuludur. Həmin kitablar Respublika Milli Kitabxanasının elektron saytına daxil edilmişdir. Yazıçı-publisist kimi xeyli sayda ədəbi-tənqidi məqalələrin, şeirlərin və tərcümələrin, 20-dən çox kitabın müəllifi və redaktoru olmusunuz. Bir çox məqalələriniz Azərbaycan, türk və rus dillərində çap olunmuşdur. Ümumilli Lider Heydər Əliyevin həyat və fəaliyyətilə bağlı "Heydər Əliyev və Salyan", "O, dahi şəxsiyyətdir", "Salyan ümumxalq kədəri içində" və digər kitablar sizin redaktorluğunuzla çap olunmuşdur.

Siz Azərbaycan Yazıçılar Birliyinin Muğan bölməsinin sədri olmaqla yanaşı, ədəbi fəaliyyətinizi də uğurla davam etdirir, bölmənin fəaliyyətinin daha da gücləndirilməsi üçün ciddi səylə çalışırsınız. Siz "Əmək veteranı" və "Metodist-müəllim" adlarını almısınız. Yaradıcılıq uğurlarına görə "Məmməd Araz" və "Qızıl qələm" mükafatlarına, AYB tərəfindən Səməd Behrəngi adına Fəxri fərmana layiq görülmüsünüz. Azərbaycan-Özbəkistan ədəbi-mədəni əlaqələrinin möhkəmlənməsində fəal iştrakınıza görə Özbəkistan Respublikasındakı Azərbaycan Mədəniyyət mərkəzi tərəfindən Fəxri fərmana (Faxriy yerlik) layiq görülmüsünüz.

Hörmətli Nəbi İbrahimli!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**